# Əbədiləşən ad

Xalqı sevənləri, torpağın qədrini bilənləri, uğrunda şəhidliyi sevənləri vətən əbədiyyətə qovuşdurar. Onların məskəni könüllər, ürəklər olar. Tarixin yaddaşına gömülər şəhidlər. Nəsillər ötdükcə tarixin qan yaddaşı tək xatırlanar, adları and yeri, məzarları ən müqəddəs ziyarətgaha çevrilər.



Qorxmazlığın, şücaətin son nöqtəsidir şəhidlik. Şəhidlik ölməzlikdir. İyul ayında Tovuz rayonu istiqamətində ermənilərin növbəti təxribatı zamanı böyük şücaətlər göstərmiş, vətən torpağı uğrunda Şəhid olmuş general-mayor Polad Həşimov iyul ayının 14-də Bakıda II Fəxri xiyabanda dəfn olundu. Ölkəmizin Prezidenti İlham Əliyev iyulun 29-da Qəbələyə səfəri zamanı onun adının əbədiləşdirilməsi ilə əlaqədar rayonun küçələrindən birinə şəhid general-mayor Polad Həşimovun adının verilməsi və digər müvafiq tədbirlər görülməsi barədə tapşırıqlar vermişdir. Polad Həşimovun adı Qəbələ şəhərində Şəhidlər xiyabanının yerləşdiyi küçəyə verilib. Onu da qeyd edək ki, bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Qəbələ şəhərində şəhid general-mayor Polad Həşimovun adının Həzi Aslanov küçəsinə verilməsi haqqında yalan məlumatlar yayılmışdır. Rayon icra hakimiyyətinin rəsmisi Azərtaca bildirmişdir ki, rayonumuzda Həzi Aslanov küçəsinə Polad Həşimovun adının verilməsi məlumatı həqiqətə uyğun deyil.

Bu küçənin başlanğıc nöqtəsi Heydər Əliyev prospekti ilə kəsişmədən başlayaraq son nöqtəsi 1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı həlak olmuş şəxslərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılmış abidə kompleksinədək uzanır. Yəni Həzi Aslanov küçəsinin adı dəyişdirilməyib.

Polad Həşimov yazılan lövhələr artıq küçə boyu yerləşdirilmişdir.

Qəbələnin mərkəzi, ən böyük və baxımlı, eləcə də turistlərin sıx hərəkət etdikləri küçəyə şəhid general-mayor Polad Həşimovun adının verilməsi hər bir qəbələli üçün qürurvericidir.

**“Qəbələ”**

# Tovuz döyüşlərində şəhid olan hərbi qulluqçuların anım mərasimləri keçirilib

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən döyüşlər zamanı düşmən hücumunun qarşısını alarkən şəhid olan hərbi qulluqçuların anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Müdafiə nazirinin tapşırığına əsasən nazirliyin bir qrup hərbi qulluqçusu general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər şəhidlərin məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrini ehtiramla yad edib və onların ailə üzvlərinə nazirliyin rəhbərliyi adından bir daha başsağlığı çatdırıblar.

Müxtəlif bölgələrdə keçirilən anım mərasimlərində şəhidlərin ailə üzvləri, xidmət yoldaşları, yerli icra hakimiyyəti, dövlət strukturları, ictimai təşkilatların nümayəndələri və veteranlar iştirak ediblər.

# Şəhid general-mayorun 40-cı anım günü

Şəhid general-mayorumuz, rayonumuzun Vəndam qəsəbəsinin fəxri, eloğlumuz Polad Həşimovun 23 avqustda şəhidliyinin 40-cı günü qeyd edildi. Generalın şərəfinə Vəndamın vətənpərvər insanlarının yaratdığı müqəddəs guşədə tədbirin birinci hissəsi keçirildi. İgid generalımızın həyat yolu ilə əlaqədar qürurla danışdılar və məktəblilər şəhidlər və qəhrəmanımız haqqında şeirlər söylədilər. Sonra qəsəbə sakinləri şəhidin evinə bayraqlar, şəhidlik və Polad Həşimov haqqında vətənpərvər nəğmələr, qəhrəmanlıq şüarları ilə yürüş etdilər.

Şəhid general-mayor Polad Həşimov hər kəsin qəlbində əbədi yaşayır.

# Minnətdarlıq

> ***“Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik”.***
> ***Heydər Əliyev.***

Hələ illər əvvəl ümummilli lider Heydər Əliyev bu sözləri deyərkən yəqin ki, dünya ictimaiyyəti gələcəkdə belə bir çətinliklə qarşılaşacaqlarını düşünmürdülər. İllər ötdü və artıq dünyada su qıtlığı yaranmağa başladı. Son illər dünyada yaranan su qıtlığı meliorasiya və içməli suya olan tələbatı daha da artırır. Belə olan halda çıxış yolu axtarmaq, yeni su mənbələri tapmaq, yaratmaq və sudan səmərəli istifadəyə diqqət etmək ön planda durur.

Yer kürəsinin 2/3 hissəsi sudan ibarətdir. İnsan bədəninin isə 80%-ni su təşkil edir. Bəlkə elə ona görədir ki, suyun dəyərini ifadə edə bilmək üçün “su həyat mənbəyidir” fikri uzun illər öncə səslənib. Əslində isə su həyat mənbəyi deyil, elə həyat suyun özü deməkdir. Heç təsəvvür belə etmək olmur təbiəti susuz. Yəqin ki, sarı rəngdən ibarət olardı dünya su olmasaydı. Ucsuz-bucaqsız qumlu səhralar, boş və hərarətli çöllər...Bunları təsəvvürümüzdə canlandırdıqca daha yaxşı dərk edir insan bu iki hərfli sözün nəhəng, dərin mənasını. Elə ona görə də, qiymətini bilməliyik bu saf məfhumun.

Bu gün ölkəmizdə su problemi olsa da hələ ehtiyatlarımız var. Odur ki, bu ehtiyatlarımızın bizi varlığımız boyunca təmin edə bilməsi üçün qənaətlə istifadə etmək, israf etməmək, ən əsası doğru yönləndirmək lazımdır. Əks halda el arasında işlətdiyimiz “su kimi ömrün olsun” ifadəsi ya tarixin tozlu səhifələrinə qarışacaq, ya da öz əsl mənasını itirəcək.

Rayonumuz respublikamızdan kənarlarda da öz təbii gözəllikləri ilə tanınır. Yamyaşıl meşələri, əzəmətli dağları, dadından doymaq olmayan saf bulaqları onun təbiətinə hər addımda gözəllik bəxş edir. Ancaq bəzən bu bol gözəlliklərdən insanlar səmərəli istifadə edə bilmirlər.

Rayonumuzun gözəl təbiətli guşələrindən biri olan Məmmədağallı kəndinin bir hissəsində kənd sakinləri uzun müddətdir ki, sudan əziyyət çəkirdilər. Bağ-bağçanın, bostan-tərəvəzlərin suvarıla bilməməsi onları daim narahat edirdi.

Təsərrüfatlarını suvarmaqda lazımı su mənbəyinin olmaması ilə bağlı çətinlik çəkən bir qrup sakin Rayon İcra Hakimiyyəti başçısı cənab Səbuhi Abdullayevə kömək üçün müraciət etmiş və qısa müddət ərzində problemləri həll olunmuşdur. Belə ki, İcra başçısının tapşırığına əsasən kəndin həmin hissəsinə suvarma məqsədi ilə 1100m uzunluğunda su kanalı çəkilmiş və insanların istifadəsinə verilmişdir. Problemlərinin dərhal aradan qaldırılması və həll olunması üçün xüsusi diqqət göstərən cənab Səbuhi Abdullayevə kənd sakinləri minnətdarlıqlarını bildirirlər.

**Əfsanə ZAKİROVA,**
**“Qəbələ”nin əməkdaşı.**

## Milli mənəvi dəyərlərimiz

# İnsanın genetik kodu

Cəmiyyətin ən şüurlu varlığıdır insan. İnsanlar da toplum şəkildə yaşadıqda cəmiyyəti yaradırlar. Cəmiyyət isə ailədən başlayır. Bax, elə buna görə də ailə möhkəm, sağlam təməl üzərində qurulmalıdır.

İnsan doğulduğu gündən formalaşmağa başlayır. Onun əqli, şüuru, düşüncə tərzinin əzəli aid olduğu ailədə yaranır. Deməli, ailə hər kəsin insan kimi formalaşmasının təməl daşıdır.

Milliyyətindən, dinindən asılı olmayaraq insanda əvvəlcə mənəviyyat formalaşır. Böyüdükcə milli xüsusiyyətlər əsasında aid olduğu xalqın adət-ənənələri, aid olduğu dinin kamilliyiylə insan cəmiyyətə hazırlanır. Buna görə də ta qədimdən insanın mənəviyyatının, milliliyinin ailədən başlandığı söylənir. Bir millətin ayaqda olmasında milli və mənəvi dəyərlərin böyük rolu vardır. İnsan öncə mənəvi dəyərlərlə zənginləşərsə, o, gələcəkdə öz xalqının, öz dininin daha məsuliyyətli qoruyucusu olur, mənəviyyatı maddiyyatdan üstün tutarsa xalqının, elinin milli qəhramanı kimi yetişər.

Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Nə qədər var-dövlət, zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. “Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır.”

Mənəviyyat sağlam insanların formalaşmasında ailə təməl sayıldığı üçün ata-ana sağlam mənəviyyatlı, milli dəyərli, mənəviyyatı maddilikdən üstün tutan olmalıdır. Axı milli-mənəvi dəyərlərimiz olan elmə meyilliliyin, hərbi vətənpərvərliyin,- dini etikanın, dini mənsubluluğun, özəyi elə ata-ana tərbiyəsindən başlayır. Qarşılaşdığımız ailə münaqişələri, insanlığa üz qarası olan oğurluq, dövlətçiliyimizə zidd hərəkətlər, xalqın taleyinə laqeydlik, öz işindən sui-istifadələr, eqoistlik, məkrlilik və s. öz təməlini mənsub olduğu ailədən götürür. Ona görə də ilk növbədə ailə sağlam olmalıdır. Ata-ananın hər bir hərəkəti, danışıq tərzi, öyüdü körpənin mühiti sayılır.

Kiçik tərbiyə müəssisəsi - bağçalar da insanın formalaşmasında əsasdır. Bağça tərbiyyəsi deyilən bir kəlam var. Tərbiyəçi müəllimlərin danışıq tərzi, bu kollektivdə, bu mühitdə öyrəndikləri əksəriyyət körpələrin hafizəsinə qan yaddaşı kimi yazılır. Və bu ən mühüm tərbiyə ocağı sayılan məktəb həyatında mənfi və müsbətliliyi ilə üzə çıxır.

Məktəb həyatında insanlar əsl insanlığa xas xüsusiyyətləri öyrənirlər. Əlbəttə məktəb və müəllimə sevgi təbliğatı ailədən başlanır. Vətənə, torpağa, elmə, millətə, insana, həyata sevgi məktəbdə forma-

> ***“Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır.”***

laşır. Müəllim tədris etdiyi fənni sevdirməkdən başqa şagirlərini ətraf mühitə, cəmiyyətə hazırlayır. Məktəb tərbiyəsi hər bir kəsin milli-mənəvi səviyyəsində müstəsna rol oynayır.

Şagirdlər gündəlik dərslərlə bərabər ana dilimizi, tarixi salnaməmizi, dinimizin zənginliklərini daha dərindən öyrənməlidir. Axı dilimiz, dinimiz, tarixi keçmişimiz bizim milli-mənəvi dəyərlərimizdir.

Yaşadığımız zaman texnologiya əsridir. Müasir gənclik müasir dünyada yaşamaq üçün zamanın tələbinə uyğun yaşamalıdır. Ancaq təkcə informasiya-texnologiyası ilə bilik qazanmaq heç də doğru deyil. Sosial-mediyalarda hər şey doğru - düzgün yazılmır, xəbərlər, hadisələr ağızdan-ağıza eşidildiyi kimi, sənədi əsasları olmadan yayılır, insanlarda səhv düşüncə tərzi yaradır.

Sensasion xəbərlər, bayağılıq, vulqarcasına yayılan fikir və münasibətlər əlbəttə, gənclərin tərbiyəsinə öz təsirini göstərir. Buna görə də, sosial səhifələrdən, informasiya və texnologiyadan istifadə edən şagirdlər, yeniyetmə gənclər, ən başlıcası körpələrə ailələr və müəllimlər diqqət etməli, onların informasiya və texnoloji biliklərdən yararmasını düzgün istiqamətləndirməlidir.

Obyektiv informasiya təminatında həlledici rolu olan televiziya verilişləri də insanların dünyagörüşünün formalaşmasında müstəsna rol oynayır. Ümummilli liderimiz Heydər Əliyev 2001-ci il 13 avqust tarixli bəyanatında demişdir. “Kommersiya maraqlarına hesablanan, bayağı və primitiv verilişlərin, filmlərin sayının getdikcə artması cəmiyyətin mütərəqqi inkişaf harmoniyasına zərbə vurur, əxlaqi dəyərlərin deqradasiyası prosesini sürətləndirir, gənc nəsildə meşşan həyat tərzinə marağı artırırdı.”

Hərbi vətənpərvərlik verilişlərinin azlığı 1 milyon vətəndaşının qaçqın olduğu bir ölkə üçün əlbəttə iraddır.

Milli-mənəvi dəyərlərin dəyərsizləşdirilməsinə yol verməməliyik. Bu gündə televiziya proqramlarında müxtəlif bayağı, süni verilişlərin və bu verilişlərdə adət-ənənələrimizə zidd hadisələrlə qarşılaşırıq. Bəzən elə teleseriallar və bu filmlərdə elə fraqmentlər göstərilir ki, uşaqların, yeniyetmə gənclərin tərbiyəsinə birbaşa öz mənfi təsirini göstərir. Bəzən bu veriliş, bu teleserial qəhrəmanlarına bənzəmək istəyir, real həyatdan uzaqlaşırlar. “İnsanlığa xas olmayan”, bəzən “qaranlıq dünya” aludəçilərinin hərəkətlərindən örnək alırlar.

Buna görə də, gənclərimiz hələ körpəlikdən milli-mənəvi dəyərlərimizlə böyüməli, onların dünyagörüşü bu ruhla formalaşmalıdır ki, həyat anlamını düzgün qavrasınlar, psixologiyalarında doğru-düzgünlüyü, pis və yaxşı örnək və ziddiyyəti formalaşdırsınlar.

Mənəviyyat maddiyyatdan öndə gəlməlidir. Əfsuslar olsun ki, bu gün insanlar arasında maddiyyata üstünlük verən insanlarla da qarşılaşmaq olur. Ancaq düşünəndə görürük ki, belə insanların zənginliyi uzunömürlü olmur. Axı dövlət keçicidir və ən çoxu bir insan ömrü qədərdir. İnsan ömrünü isə Tanrı yazır!..

İnternetin sərhədlər tanımadığı bir dövrdə milli-mənəvi dəyərlərimizi qorumalıyıq. Bu bizim keçmişimizdən başlayır. Milli dəyərlərimizi “Dədə Qorqud”dan da öyrənmək lazımdır. Ədəb-ərkan qaydaları bizim milli dəyərimizdir. Dilimiz, dinimiz, ideologiyamız, təbliğat və təşviqatımız da bizim milli dəyərlərimizdir. Əgər biz bunları qoruyub saxlaya biləriksə, genetik kodumuzu da qoruyub saxlamış olarıq.

Axı hər bir insanın genetik kodu olmalıdır. Bu isə hər kəsin cəmiyyətdə insan kimi yaşamasının əyani sübutudur!

**BİBİXANIM.**